Ədalət .- 2025.- 5 dekabr (№46).- S.16.



*Əntiqə Kərimzadə*

# Ömrü "Yaz yağışı"nda islanan Eyvaz

***Yazdığı şeirlər ciddi ədəbiyyat nümunəsi sayılmasa da, o, bir çox adamların deyə bilmədiyini nəzmə çevirmişdi. Onu daha çox yeniyetmələr və gənclər sevirdilər.***

***Hamı onu əyyaş şair kimi tanıyırdı. Lakin sonra məlum olur ki, o, bir çox dünya klassiklərinin yaradıcılığını mükəmməl bilir. Hətta Şərq- Qərb ədəbiyyatının hamısından xəbərdardır.***

***Nakam məhbbətindən sadə şeirlər yazan, avtobus sürücüsü kimi tanınan şair əslində dərin bir oxucu olub. Bu adam hamımızın Yetim Eyvaz kimi tanıdığı Eyvaz Qurbanovdur.***

***O, 26 fevral 1952-ci ildə Keçmiş Dəvəçi rayonunun Qələgah kəndində dünyaya gəlib. Qəribədir ki, Eyvazın taleyində 40 yaş daha qlobal və acı tarixlə yadda qalıb. Belə ki, onun 40 yaşı tamam olan gün Xocalı faciəsi baş verib. Eyvazın 40 yaşıdan sonrakı bütün ad günləri faciə gününə təsadüf etdiyindən həmin günü qeyd etməkdən vaz keçir. O, Xocalı cammatına və əsgər yoldaşı Əlif Hacıyevin ruhuna ehtiram olaraq öz ad günü haqqında bir daha söz açmır.***

***Orta məktəbi bitirəndən sonra hərbi xidmətə yollanır. Uzun illər kənd toylarında müğənni kimi fəaliyyət göstərir. Eyvaz əməliyyat olunur və bununla da onun səs telləri zədələnir. Bu isə onun müğənni kimi fəaliyyətinin sonu demək idi. Çörək pulu qazanmaq üçün 21 il avtobus sürücüsü kimi fəaliyyət göstərir.***

***Özü barədə tez- tez "yetim uşağam" kəlməsini o qədər işlədirdi ki, hamı onu "Yetim Eyvaz" kimi çağırırdı. Məhz bu təxüllüs də ona sürücü işlədiyi vaxtlardan yadigar qalmışdı.***

***Tale onun məşhurluq çırağını bir qəribə hadisə ilə yandırır. Onun sadə bir şeiri dostunun telefonundan insanların ürəyinə köçür. Dostu Şirəlinin telefonunda "Yaz yağışı" şeiri ilə bir gecənin içində milyonların qəlbinə yol tapır.***

***Taleyi də qəribə olur. Eyvaz şeirə görə ailəsindən boşanır. Övladlarını evləndirdikdən sonra həyat yoldaşı ilə şeir üstündə mübahisə edir. Yoldaşı ondan şeirlərindəki qadının kimliyini soruşur. Dəfələrlə təkrarlanan bu hadisədən sonra Eyvaz evdən bir dəfəlik gedir.***

***Təxminən 2500-dən çox şeirləri olsa da təəssüf ki, həmin şeirlərin böyük bir hissəsi itib. Çünki müəllif şeirləri əzbər bildiyindən onları qeydə almayıb. Bu qədər çox sevilməyinə baxmayaraq, heç vaxt özünə şair deməyib. Ona şair deyənlərə də "Füzuli olan yerdə mənim özümə şair deməyim eyibdir" deməklə etiraz edib.***

***Şairin şeirlərinin qeydə alınmaması onun həvəskar yaradıcılığının demək olar ki, itməsi ilə nəticələnir. Bu gün sosial şəbəkələrdə səslənən şeirlərindən başqa onun heç bir mətni yoxdur. Onun "Yaz yağışı" kitabı nəşr olunsa da, hazırda həmin kitab da mənbə kimi qalmır. İnsanlar onun bir çox şeirlərini dinləsə də, hamı onu "Yaz yağışı" şeiri ilə daha çox sevirdi.***

***2016-cı ildə o, yenidən əməliyyat olunur. Məhz bu səbəbdən həkim ona spirtli içkini qadağan edir. Lakin Yetim Eyvaz bu vərdişi ilə mübarizə apara bilmir.***

***Səhhətində ciddi problemlər yaranan Yetim Eyvaz 23 iyul 2017-ci ildə dünyasını dəyişir.***